# Brüssel görüşünün nəticəsi düzgün seçilmiş strateji xəttin bəhrəsidir

***Tarixin sınaqlarından şərəflə çıxan Azərbaycan dövlətinin başçısı İlham Əliyevin dünyanın siyasi mənzərəsinə yaxından bələd olması, ən əsası isə bir siyasi lider kimi şəxsi keyfiyyətləri Azərbaycanın bugünkü uğurlarının təməlində dayanır. Müasir dünyamızın çağırışlarına çevik cavab verməyi bacaran dövlət başçımızın rəhbərliyi altında Azərbaycanın fəal xarici siyasət yürütməsi və öz maraqlarını yetərincə müdafiə etməyi bacarması ölkəmizi nəinki regionun, eləcə də, beynəlxalq aləmin ən güclülərindən birinə çevirib.***



Azərbaycan tərəfi dəfələrlə Ermənistan üçün tarixi şans yaradıb. Bu şansın növbəti dəyərləndirilməsi Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan baş naziri Nikol Paşinyanın görüşündə baş tutdu. Görüş, bütövlükdə, beş saat çəkdi. Zaman çərçivəsi onu deməyə əsas verir ki, bütün məsələlər nəzərdən keçirilib və nəticələr əldə olunub.

Görüşdə müzakirə olunan məsələlər barədə söz açarkən öncə onu vurğulamaq lazımdır ki, bu dəfə də "Dağlıq Qarabağ" ifadəsi işlədilmədi. Tarixin arxivinə gömülən status məsələsi isə ümumiyyətlə, olmadı. Yalnız Azərbaycanda yaşayan erməni əhalinin hüquqları barədə danışıldı. Qarabağ ermənilərinin hüquqları məsələsinə gəldikdə isə qeyd olundu ki, onların təhlükəsizliyi Azərbaycanın işidir. Dəfələrlə ən ali səviyyədə bunu bildirmişik. Prezident İlham Əliyev bildirdi ki, oradan çox müsbət mesajlar da alırıq. Bu, mesajlar olduqca ciddidir.

Dövlət başçımız 2022-ci il aprelin 6-da Azərbaycan, Ermənistan və Avropa İttifaqı arasında keçirilmiş görüşün nəticələrinə müvafiq şəkildə və gecikmədən sülh müqaviləsi üzrə danışıqlara başlamaq üçün işçi qrupunun tərkibini, həmçinin sərhədlərin delimitasiyası üzrə milli komissiyanın tərkibini müəyyənləşdirdi. Bu baxımdan da mayın 22-də Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə Brüsseldə keçirilən görüşdə yaxın vaxtda Azərbaycanla Ermənistanın sərhədində sərhəd komissiyalarının ilk birgə iclasının keçirilməsinin razılaşdırılması olduqca mühüm əhəmiyyət kəsb edir ki, vaxt uzatmadan bu iş yekunlaşdırılsın. Deməli, Avropa İttifaqı ilə Azərbaycanın mövqeyinin üst-üstə düşdüyü bir daha məlum oldu.

İkitərəfli münasibətlərdə manеələri ardıcıl olaraq, aradan qaldırmaq lazımdır. Bunun vaxtı çoxdan çatıb. Gömrük prosedurları, infrastruktur məhdudiyyətləri və digər məsələlərin tənzimlənməsi ilə Azərbaycanın yaratdığı reallıq nəticəsində Cənubi Qafqaza sülh və təhlükəsizlik çoxdan qədəm qoyub. İndiki məqamda isə əsas siyasi problemlərin və iqtisadi məsələlərin həllində ardıcıl kompromislərə nail olmaq lazımdır ki, Cənubi Qafqazda sülh və təhlükəsizlik daimi olsun. Bu baxımdan da üçtərəfli görüşdə sərhəd idarəçiliyi, təhlükəsizlik, torpaq haqları, habelə beynəlxalq daşımalar kontekstində gömrük prinsipləri barədə, kommunikasiyaların açılması istiqamətində işin davam etdirilməsi, həmçinin Zəngəzur dəhlizinin reallaşdırılması, beynəlxalq daşımaların tənzimlənməsi və digər məsələlər barədə razılığa gəlinməsi olduqca vacib məqamdır. Çünki müəyyən vaxtlarda Ermənistan bu məsələ ilə bağlı süni manеələr yaradaraq, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında dəhlizin yaradılmasının icrasını yubadırdısa, artıq Ermənistan dərk edir ki, bu məsələ qaçılmazdır, habelə onun özü üçün də vacibdir.

Humanitar normalara riayət olunmasını, itkin düşmüş şəxslərin taleyinin araşdırılmasını təmin etmək kimi aktual məsələlər dövlətlər üçün son dərəcə zəruri olmalıdır. Azərbaycan xalqının milli maraqlarını hər bir diplomatik masada prioritet kimi müəyyənləşdirən dövlət başçımız işğaldan azad edilmiş ərazilərimizdə mina problemi və Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab olunan 4 minə yaxın şəxsin taleyinə aydınlıq gətirilməsinin vacibliyi məsələsi üzərində bir daha dayandı.

Üçtərəfli görüşdə Ermənistan və Azərbaycan arasında dövlətlərarası münasibətləri tənzimləyən gələcək sülh müqaviləsi üzrə müzakirələrin irəli aparılması ilə bağlı razılıq əldə olundu. Belə ki, yaxın həftələrdə xarici işlər nazirlərinin başçılığı ilə etdikləri nümayəndə heyətləri bu prosesi davam etdirəcəklər. Görüşdə iqtisadi inkişafın təmin olunması üçün iqtisadi məsləhət qrupunun işinin davam etdirilməsi, Aİ-nin əhalinin uzunmüddətli davamlı sülhə hazırlanmasına dəstəyini ifadə etməsi bölgə üçün siyasi, iqtisadi, sosial və humanitar məsələlər baxımından olduqca zəruridir. Azərbaycan tərəfi bu məsələlərin vacibliyini hər zaman bildirir, ən əsası isə real addımları ilə sübut edir.



Üçtərəfli görüş Ermənistanın təxribatlarını, daxili şoularının nəticəsizliyini üzə çıxarıb manevr imkanlarını xeyli məhdudlaşdırdısa, Azərbaycan Prezidenti İlham Əliyevin bölgədə yaratdığı reallıqdan kənar bir imkanın olmadığını bir daha sübut etdi . Bu görüş də Azərbaycan tərəfinun növbəti diplomatik qələbəsi ilə yekunlaşdı.

***Şəbnəm HƏSƏNOVA,***
***politoloq***